# THE SPHERE OF DIDACTIC WORK ON LISTENING TEXTS IN PRIMARY CLASSES

**Nargiz Aghayeva**

Azerbaijan State Pedagogical University
E-mail: nargizramizzadeh@gmail.com
https://orcid.org/0009-0000-1887-6850

**Abstract.** When people want to learn a language, the basic and fundamental skill they need is listening. In the process of learning a language, people listen only before writing, reading and speaking. Listening skill, which plays an important role during communication, is also the most important factor in language learning. In this sense, listening and understanding are first-class concepts for learning the intricacies of our mother tongue. We must correctly form these skills in students during the learning process, because if we correctly form students' listening and understanding skills, we also correctly form other skills - speaking, reading, writing rules of speech. These skills are linked together in a chain. In this regard, a logical connection must be correctly established between them. At the same time, the widespread use of all didactic opportunities for working on listening to texts leads to the successful implementation of teaching these skills.
**Keywords:** listening text, primary education, Azerbaijani language, teaching process, didactic possibilities.

**DOI:** 10.30546/2709-2488.2.2024.045.
**To cite this article:** Aghayeva N. (2024). The sphere of didactic work on listening texts in primary classes. *Journal of Preschool and Primary Education*, Vol. 247, Issue II, pp. 45-57.
**Article history:** received – 24.04.2024; accepted – 22.05.2024.

# İBTİDAİ SİNİFLƏRDƏ DİNLƏMƏ MƏTNLƏRİ ÜZƏRİNDƏ APARILAN DİDAKTİK İŞLƏRİN SFERASI

**Nərgiz Ağayeva**

Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: nargizramizzadeh@gmail.com
https://orcid.org/0009-0000-1887-6850

**Annotasiya.** İnsanlar bir dili öyrənmək istədikdə, onlara lazım olan əsas və ilkin bacarıq dinləmədir. Dil öyrənmə prosesində insanlar yazmazdan, oxumazdan və danışmazdan qabaq yalnız dinləyirlər. Ünsiyyət zamanı başlıca rol oynayan dinləmə bacarığı dil öyrənmədə də ən başlıca və vacib bir amildir. Bu mənada, ana dilimizin incəliklərinin öyrənilməsi üçün dinləmə və anlama birinci dərəcəli məfhumdur. Biz dərs prosesində bu bacarıqları şagirdlərdə düzgün şəkildə formalaşdırmalıyıq, çünki biz dinləyib-anlama bacarığını şagirddə düzgün formalaşdırsaq, digər bacarıqları − danışma, oxu, yazı, dil qaydalarını da düzgün formalaşdırmış olacağıq. Bu bacarıqlar sistemli, ardıcıl şəkildə bir-biri ilə bağlıdır. Bu baxımdan, onlar arasında məntiqi əlaqə düzgün qurulmalıdır. Eyni zamanda dinləmə mətnləri üzərində aparılan işlərin bütün didaktik imkanlarından geniş şəkildə istifadə etmək bu bacarıqların öyrənilməsinin uğurla həyata keçirilməsinə səbəb olur.

**Açar sözlər:** dinləmə mətni, ibtidai təhsil, Azərbaycan dili, tədris prosesi, didaktik imkanlar.

**DOI:** 10.30546/2709-2488.2.2024.045.
**Məqaləyə istinad:** Ağayeva N. (2024). İbtidai siniflərdə dinləmə mətnləri üzərində aparılan didaktik işlərin sferası. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (247), səh. 45-57.
**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2024; qəbul edilib – 22.05.2024.

## Giriş / Introduction

İnsanlar arasında ünsiyyət yarandığı gündən dinləyib-anlama məfhumu da yaranmışdır. Dinləyib-anlama olduqca qədim tarixə malik bir bacarıqdır. Düzgün şəkildə dinləməyi və anlamağı bacarmaq həm gündəlik həyatımızda, həm də təhsil sahəsində son dərəcə müstəsna əhəmiyyətə malikdir. İnsan dünyaya gəldiyi gündən ömrünün sonuna kimi bu və ya digər bir hadisə, əşya və s. haqqında məlumatları dinləyərək anlayır. Müasir təhsil sistemimiz bu cür həyati bilik və bacarıqların mənimsədilməsini başlıca vəzifə kimi müəyyənləşdirmişdir. Dinləyib-anlamanın Azərbaycan dili fənni üzrə məzmun xətlərindən biri və birincisi olması məhz bununla bağlıdır. Bu və ya digər bir dilin öyrənilməsində öyrənmənin əsasını dinləyib-anlama təşkil edir. Bugünkü Azərbaycan dilinin tədrisinin ən başlıca vəzifələrindən biri şagirdlərdə ana dilində dinləyib-anlama bacarıqlarını formalaşdırmaqdır. Bir fərd üçün bu bacarığın əsası ilkin olaraq cəmiyyətdə və ailədə qoyulur. Dinləyib-anlama üzrə bilik və bacarığın təməli ailədə qoyulduqdan sonra bu bacarıqlar üzrə iş orta məktəbdə davam etdirilir. Dinləyib-anlama məzmun xətti, bu məzmun xəttində reallaşdırmalı olduğumuz əsas və alt standartlar, onlar üzərində işin qurulması son dərəcə müstəsna əhəmiyyətə malikdir. Bu iş orta məktəbdə dərslik, dərslikdəki mətnlər, tapşırıqlar vasitəsi ilə reallaşdırılır. Dərsliklər və həmin dərslikdə yer alan tapşırıqlar üzrə işin düzgün qurulması bu məzmun xəttinin inkişafında vacib məsələdir. Dinləyib-anlama bacarıqlarının reallaşdırılması zamanı meydana çıxan problemlər də olduqca aktualdır. Bu problemlər, adətən psixoloji cəhətdən işin düzgün qurulmaması, diqqət pozğunluğu, dinləyib-anlama bacarığını reallaşdırmaq üçün verilən mətnlərin həcminin böyük olması, mətnlərin şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun müəyyənləşdirilməməsi, iş forması və üsullarının düzgün seçilməməsi və s. səbəblərdən qaynaqlanır.

## Əsas hissə / Main part

İnsanlar bir dili öyrənmək istədikdə, onlara lazım olan əsas və ilkin bacarıq dinləmədir. Dil öyrənmə prosesində insanlar yazmaq, oxumaq və danışmazdan əvvəl yalnız dinləyirlər. Ünsiyyət zamanı başlıca rol oynayan dinləmə bacarığı dil öyrənmədə də ən başlıca və vacib bir amildir. Bu mənada öz doğma ana dilimizin incəliklərinin öyrənilməsi üçün dinləmə və anlama birinci dərəcəli məfhumdur. Biz dərs prosesində bu bacarıqları şagirdlərdə düzgün şəkildə formalaşdırmalıyıq, çünki biz dinləyib-anlama bacarığını şagirddə düzgün formalaşdırsaq, digər

bacarıqları – danışma, oxu, yazı, dil qaydalarını da düzgün formalaşdırmış olacağıq. Bu bacarıqlar zəncirvari şəkildə bir-biri ilə bağlıdır. Onlar arasında məntiqi əlaqə düzgün qurulmalıdır ki, bu bacarıqların öyrənilməsi uğurla həyata keçirilsin. Dinləyib-anlama təlimi üzrə işin istiqamətlərinin düzgün qurulması prosesində bir sıra məsələlərə diqqət etmək lazımdır:

1.psixoloji cəhətdən sinfin, şagirdlərin dərs prosesinə hazırlığı;

2.dinləyib-anlamanın psixolinqvistik tərəflərinin nəzərə alınması;

3.dinləyib-anlama və danışma üzrə məzmun standartlarının reallaşdırılması;

4.dinləyib-anlama zamanı meydana çıxan problemlərin aradan qaldırılması;

5.dinləyib-anlama bacarıqlarının inkişafına xidmət edən mətnlərdən istifadə;

6.dinləyib-anlama bacarıqlarına uyğun iş formaları və üsullarının seçilməsi və s.

Hər bir işin uğurla yerinə yetirilməsində düzgün məqsədin müəyyənləşdirilməsi əsas amildir. Məhz bu mənada bizim məqsədimiz şagirdlərin yaş və anlaq səviyyəsini, maraq dairəsini nəzərə almaqla onlarda dinləyib-anlama bacarıqlarını inkişaf etdirməkdir. “İlkin müşahidə və təcrübələr göstərir ki, ibtidai təhsil səviyyəsində şagirdlərin yaş səviyyəsinə uyğun olmayan, marağını təmin etməyən, eləcə də praktik fəaliyyət prosesində tətbiq olunmayan təlim materiallarının minimuma endirilməsi, əvəzində müasir dövrün tələblərinə uyğun təlim materiallarına üstünlük verilməsi məzmunun humanistəşdirilməsi funksiyasını qüvvətləndirir” [Balayeva G., 2012]. Belə yanaşma tərzi ibtidai siniflərdə şagirdi gücünə müvafiq olmayan tədris yükündən azad edir, öz maraq və meyillərini reallaşdırmaqda ona kömək edir. Nəticədə, sinifdə müsbət emosional mühit yaranır.

Təhsilin keyfiyyətinin ən başlıca cəhətlərindən biri yetişməkdə olan şəxsiyyətin – şagirdin psixoloji hazırlığıdır. İlk öncə, burada əsas məsələ müəllimin psixoloji hazırlıqlı olmasıdır. Ümumtəhsil məktəblərində psixoloji dəstək xidmətinin olması müəllimin psixoloji hazırlığının rolunu müəyyən mənada zəiflədə bilər, lakin bu, belə olmamalıdır. Müəllim gün ərzində mütəmadi olaraq şagirdlərlə ünsiyyətdə olur və müxtəlif situasiyalarla qarşılaşır. Buna görə də müəllim təlim prosesində yaranan psixoloji çətinliklərin öhdəsindən gəlməyi bacarmalı və buna hazırlıqlı olmalıdır. Müəllim stresli vəziyyətlərin tez-tez təkrarlandığı bir təhsil mühitində fəaliyyət göstərir ki, belə bir mühitdə müəllim düzgün tarazlığı qoruyub saxlamağı bacarmalıdır. Müəllim hər bir şagirdin ruhunu, şəxsiyyətini, anlaq səviyyəsini anlamağı bacarmalı, ona fərdi yanaşaraq onun təlim və tərbiyəsini təşkil etməlidir. Bugünün tələblərinə cavab verən müəllim şagird şəxsiyyətinin formalaşmasına, istedad və bacarıqlarının üzə çıxarılmasına, cəmiyyətdə düzgün şəkildə özünə yer tapmasına təsir göstərir. Məhz buna görə müəllimin psixoloji hazırlığı mühüm əhəmiyyətə malikdir. Dərsin uğuru, ilk növbədə, müəllimin dərs prosesi üçün əlverişli psixoloji mühiti yarada bilməsindən irəli gəlir.

Təlimin məqsədlərinin reallaşması birbaşa olaraq psixoloji cəhətdən dərs mühitinin düzgün qurulmasından asılıdır.

Dinləmə mətnləri vasitəsilə biz şagirdlərdə dinləyib-anlama bacarığını inkişaf etdirmək məqsədilə dərs prosesi zamanı şagirdin, sinfin psixoloji vəziyyətinə diqqət etməliyik. Elə ola bilər ki, şagird dərs prosesi ilə əlaqədar olmayan bir səbəblə bağlı qəmgindir. Bu, onun diqqətinin pozulmasına səbəb ola bilər.

Oxunulan mətn bəzən həcm etibarilə böyük olarsa, bu zaman şagirdlərin ardıcıl olaraq dinləmə prosesini icra etməsi çətin olur. Bu zaman lazım gələrsə, müəllim haşiyəyə çıxaraq şagirdlərin diqqətini mətnə cəlb etməyi bacarmalıdır. Dərs prosesində şagird dərsdən yeni bir şeylər öyrənməli, yeni öyrəndiklərini əvvəl öyrəndikləri ilə əlaqələndirməli və bu bilikləri bacarıq və vərdişə çevirməli, müəllim isə şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün şərait yaratmalı, onların hərtərəfli inkişafına təkan verən fəaliyyətlər planlaşdırmalıdır. Bu sxemin uğurlu həyata keçməsi təlim prosesinin uğurlu olmasını təmin edir.

Dərsin psixolinqvistik cəhətdən uğurlu olması dinləyib-anlama bacarıqlarının inkişafında xüsusi rol oynayır. Diqqət, hafizə, təxəyyül, idrak, eşitmə və s. bu kimi məfhumlar dinləyib-anlama mərhələsi üçün olduqca önəmlidir. Bu məfhumlar olmadan dinləyib-anlamanın var olması mümkün deyil.

Dinləmə dərslərində uşaqlara daim sual vermək və onları fikir söyləməyə təhrik etmək lazımdır. Onlar ancaq öyrənmək üçün deyil, anladıqlarını göstərmək, nümayiş etdirmək üçün də bir-birilərinə suallar verə bilərlər. Verilən suallar şagirdlərin dinləmə bacarıqlarını dəyərləndirib qiymətləndirmək üçün meyar rolun oynayır.

Qeyd etmək lazımdır ki, dinlənilən mətnlərlə əlaqədar fikir söyləmək dərs prosesində danışma və dinləmə bacarıqlarını sintez etməyə imkan verir. Məlumdur ki, ifadə yazı metodikasında seçilən hər hansı bir mövzuda mətn olur, həmin mətn oxunur, dinlənilir, çətin sözlər izah edilir, yəni leksik, orfoqrafik, orfoepik təhlillər aparılır, suallarla məzmun anlaşılır, məzmun ya yığcam, ya geniş şəkildə seçmə yolu ilə dinlənilir. Bu meyarların məzmunu aşağıdakılardır:

- Şifahi ifadə forması ilə dinləmə meyarı arasında elə bir ciddi fərq yoxdur, xüsusilə də onların hər ikisi təlim fəaliyyətidir – bacarıqdır. Hər ikisində dinləyib-anlama və danışma məzmun xəttinə daxil olan bacarıqlar kompleksi var. Həmin komplekslərdən məqsədəuyğun şəkildə istifadə inteqrativ səciyyə ilə interaktiv səciyyəni özündə birləşdirir.

Fikrimizcə, yeni və ənənəvi təlimdə, ifadə metodikasında da, indiki dinləmə mətni üzrə işdə də, orfoepik bacarıqlara müəllimlər tərəfindən ona görə əhəmiyyət verilmir ki, metodik vəsaitlərdə bu mühüm cəhət diqqətdən kənarda qalmışdır. Onu şagirdlərin nitq inkişafı bacarıqlarının mühüm vasitəsi kimi sistemə daxil etmək lazımdır.

- Şagirdlərin dinlədiyi nəzm və ya nəsrə aid nümunə olsa belə, yenə də onun məzmunu nəsrlə ifadə edilir. I–IV sinif Azərbaycan dili dərsliklərində əsas və yardımçı olan mətnlər nəzmlə də ola bilir. Belə ki, hazırki dərsliklərdə və metodik vəsaitlərdə nəzm parçalarının sayı birinci və ikinci siniflərdə, üçüncü, dördüncü siniflərə nisbətən çoxluq təşkil edir. Birinci sinifdə belə mətnlər əlifbadan sonrakı mərhələlərdə verilir. Bu mətnlər şagirdlərdə nitq inkişafı, yadda saxlama, hafizə itiliyi yaratmaq məqsədi daşıyır.

Bədii mətnlərin məzmun və forma vəhdətində tədrisi prinsipi ibtidai siniflərdə də aparıcı rola malikdir. Təkcə nəyin təsvir olunduğunu bilmək azdır, şagirdlərə estetik təsir göstərməsi üçün onun necə ifadə olunduğunu bilmək vacibdir. Bədii mətnlərin uşağın yaş və bilik xüsusiyyətinə müvafiqliyi təmin edildikdə həmin vəzifənin öhdəsindən gəlmək olar. Bu prosesdə şagirdlərin fərdi qabiliyyətlərinə də istinad etmək lazımdır. “Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur” [Bayramov Ə., Əlizadə Ə., 2006]. Hər bir şagirdin mənimsəmə qabiliyyəti fərqli olduğu üçün müəllim bunu öz işində də nəzərə almalıdır.

İbtidai siniflərdə bədii mətnlərin dili üzərində işin xüsusiyyətlərini aşağıdakı qaydada qruplaşdırmaq olar:

- bədii təsvir və ifadə vasitələrinin praktik cəhətdən başa düşülməsini və nitqdə işlədilməsini təmin etmək;
- mətndə onların vəzifəsi və bədii rolunu göstərmək;
- bədii obrazların düzgün canlandırılması və əsərin məzmununun dərindən başa düşülməsinə nail olmaq;
- şagirdlərin bədii zövqünü inkişaf etdirmək [Cəfərova N., 2021].

Müasir dərsliklərdə nəzm parçaları sayına görə ənənəvi dərsliklərə nisbətən azlıq təşkil edir. Bu da standartların üzərinə düşən çatışmazlıqlardır. Beləliklə, hesab edirik ki, nəzm parçalarını nəsrlə ifadə edib anlayır və həmin parçanı “nəzmlə olduğu kimi söyləyir” bacarığı da olmalıdır. Əzbər söyləmək ən qiymətli bacarıq, nəinki bacarıq, avtomatlaşmış bacarıq və həmçinin də vərdişdir. Əgər elə parçaların məzmununu şagirdlərə mənimsətdikdən sonra ifadəli şəkildə əzbər söylədə biliriksə, bu, artıq həyatı bacarıq və ya qiymətli səriştədir.

Dinləyib-anlama ilə bağlı problemləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

Bir çox şagird dinləyib-anlamada çətinlik çəkir, məsələ burasındadır ki, şagird indicə dinlədiyi bir məlumatı xatırlamaqda çətinlik çəkir. Bunun bir çox səbəbləri vardır. Bəzən video formatlı mətnlər dinlədilərkən şagirdlərə bu videoların uzunluğu izləmək üçün çox ola bilər, şagirdlərdə eşitmə pozğunluğu da dinlədiyi materialı xatırlamaqda çətinlik çəkməsinə səbəb ola bilər. Bütünlükdə bu məsələlərin hər birinin kökündə  diqqətsizlik, diqqətin əskikliyi özünü göstə-

rir. Dinləməni başa düşmək, anlamaq səbr tələb edir, lakin səbr birdən-birə yaranmır. İlk öncə, müəllim əgər mətni videoklip formatında şagirdlərə dinlədirsə, bu zaman videoklipin uzunluğu qısaldılmalıdır. Həmçinin mətnin ifadəli oxusu zamanı fasilələrdən istifadə etdiyimiz kimi, videoklipləri də hissələrə ayıraraq, fasilələrlə şagirdlərə dinlətmək olar. İstər oxu mətnləri, istərsə də videoklip formatında olan dinləmə zamanı sadədən mürəkkəbə üsulundan istifadə etmək lazımdır ki, bu üsul daha  çox özünü doğruldur.

Fikrimizcə, şagirdlərdə dinləyib-anlama zamanı meydana çıxan problemi müəllim və valideyn əməkdaşlığı ilə həll etməyə çalışmaq lazımdır. Aktiv dinləməni təmin etmək üçün müəllimlərin verdiyi tapşırıqlara evdə valideynlərin nəzarəti və dəstəyi ilə əməl etmək olar. Valideyn gün boyu öz övladının diqqətini yayındıra biləcək düşüncələri, hərəkətləri, ətraf mühitin təsirini müşahidə edərək, onun diqqətinin yayınmasına nələrin səbəb olacağını müəyyənləşdirə bilər.

Vaxt dinləyib-anlama zamanı meydana çıxan problemlərin həllində müstəsna əhəmiyyətə malikdir. Aktiv dinləmənin yollarını şagirdlərə öyrətmək və tətbiq etmək üçün sərf olunan vaxt diqqətdə saxlanılmalı, dinləyib-anlamaya sərf edilən vaxt onlarda dinləməni başa düşmə bacarığının formalaşmasına səbəb olacaq.

Şagirdlər dinləmə zamanı dinlədiklərini yadda saxlamaq üçün qeydlər apara bilərlər. Müəllim isə əvvəlcədən onlara hansı söz və ya ifadələrin qeyd olunmasının məqsədə uyğunluğunu vurğulaya bilər. Həmçinin müəllim tərəfindən əvvəlcədən hazırlanmış qrafiklərdən istifadə də məqsədə uyğundur. Müəllim dinləmədən öncə şagirdlərin dinləyərkən doldura biləcəyi və əvvəlcədən hazırladığı qrafikləri onlara təqdim edir və şagird dinləmə zamanı müvafiq məlumatları qrafikə daxil edə bilər.

İstər dərs prosesində, istər müəyyən tədbirlərdə, konfranslarda söylənilən nitqin anlaşılması üçün natiqin nitqinin aydın, səlis, anlaşıqlı olmasının mühüm əhəmiyyəti vardır. Biz dinləyib-anlama zamanı yaranan problemləri sadəcə diqqətsizliklə əlaqələndirmiş olsaq, yanılmış olarıq. Müəllimin nitqi ədəbi dilin normalarına uyğun, aydın, anlaşıqlı olmalıdır. Mətnin ifadəli oxusu zamanı müəllim mətnin məzmununu tam şəkildə bilməlidir, əgər müəllim mətni şagirdlərə oxuyarkən özü də ilk dəfə oxuyursa, heç şübhəsiz onun şagirdləri mətnin məzmununu, mahiyyətini düzgün şəkildə dərk etməyəcəkdir. Əgər müəllim mətni oxuyarkən, sözləri tələffüz edərkən  öz dialekt və şivələrindən  istifadə edərsə, bu zaman təbii ki, şagird dinlədiyi mətni anlamayacaqdır.

Sinif müzakirəsindən, mətnin və ya videoklipin  dinlənilməsindən öncə mətnin mövzusu ilə bağlı sinif müzakirəsinin aparılması şagirdlərin diskussiyaya qoşulmasına və dinləniləcək mətnin məzmununa marağın oyanmasına səbəb olacaqdır.

Dinləyib-anlama zamanı istifadə etdiyimiz mətnlərin, videokliplərin mövzusu baxımından olduqca diqqətli olmaq lazımdır. Şagirdlərin yaş və anlaq sə-

viyyəsinə, onların maraq dairəsinə uyğun gələn mövzuların seçilməsi dinlənilən mətnin yadda qalmasında, anlaşılmasında mühüm əhəmiyyətə malikdir.

Bəzən, şagirdin dinlədiyi mətndəki sözlər onun üçün yad ola bilər, mətnin dinlənilməsindən sonra bu sözlər üzərində iş aparılması lazımdır. Bu da həm mətnin mənimsədilməsinə, həm də lüğət ehtiyatı üzrə işin qurulmasına təminat yaradacaq. Bəzən şagirdlər mənasını bildiyi sözləri belə mətndə tanımağa çətinlik çəkirlər, bunun səbəbi sözün mətn kontekstində öz ilkin mənası ilə yanaşı başqa məna ifadə etməsidir. Lüğət üzrə işin aparılması mühüm əhəmiyyətə malikdir.

Dinləyib-anlama bacarıqlarının inkişaf etdirilməsində düzgün iş formaları və üsullarından istifadə son dərəcə mühüm əhəmiyyətə malikdir.

Fərdi, cütlərlə, qruplarla, kollektivlə iş formalarını vasitəsilə şagirdlərdə dinləyib-anlama bacarıqlarını inkişaf etdirmək olar. Mətnin məzmununa uyğun dərslikdə verilmiş tapşırıqla və ya dərslikdən kənar suallar vasitəsilə şagirdin mətnlə bağlı fərdi işini təşkil edə bilərik. Cütlərlə iş formasında şagirdlərin öz parta yoldaşı ilə birgə əməkdaşlıq şəraitində tapşırığı yerinə yetirmələri onlarda dinləmə bacarığını formalaşdırır. Qruplarla iş şagirdlərin birgə əməkdaşlığını inkişaf etdirməklə yanaşı onların dinləyib-anlama bacarıqlarının formalaşmasında müstəsna rola malikdir. Əməkdaşlıq şəraitində yerinə yetirilən tapşırıqların cavabları qrup liderləri tərəfindən səsləndirilir. Məhz bu zaman şagirdlər qrup liderlərinin səsləndirdiyi cavabları diqqətlə dinləməlidirlər ki, öz təklif və iradlarını bildirə bildirsinlər. Kolletivlə iş zamanı  şagirdlərin aktiv dinləməsindən sonra onlara mətnin məzmununa uyğun suallar ünvanlanır və birgə müzakirələr nəticəsində düzgün cavablar müəyyənləşdirilir.

Dinləyib-anlama üzrə ən uyğun iş üsulları debat, diskussiya, beyin həmləsi, anlayışın çıxarılması, venn diaqramı və s. hesab edilir. Diskussiya zamanı mətndə irəli sürülən fikir, ideya ilə bağlı dinləmədən sonra müəllim-şagird, şagird-müəllim, şagird-şagird əməkdaşlığı prosesində mətnin müzakirəsi ilə bağlı işlər aparılır.

P.Paşayeva, S.Abbasovanın Azərbaycan dili tədrisinin aktual problemlərindən bəhs edən kitabda “Dinləyib-anlama və danışma məzmun xətti üzrə şagirdlərin bacarıqlarının inkişaf etdirilməsi” fəslində dinləyib-anlama və danışma üzrə qoyulmuş məsələlərə diqqət edək.  Burada biz işin mexanizmi, quruluşu, psixoloji xarakteristikası ilə bağlı məsələlərə diqqət yetirildiyini görürük. Burada dinləyib-anlama zamanı mühüm olan qavrama, anlama, möhkəmlətmə, tətbiqetmənin vacib əhəmiyyəti vurğulanmış və hər birinin mahiyyəti barədə məlumat verilmişdir. Kitabda dinləmənin məqsədi belə izah olunmuşdur: “Dinləmənin məqsədi informasiya qəbul etmək və onu anlamaqdır. Qeyd edək ki, oxu ilə müqayisədə dinləmə yüksək səviyyədə diqqət tələb edir. Burada informasiyanın anlaşılmaz hissəsinə dəfələrlə qayıtmaq imkanı yoxdur. Mətni bir dəfə dinlədikdən sonra

ona adekvat reaksiya vermək lazım gəlir. Kurikuluma qədərki dövrdə oxu və yazı bacarıqlarına diqqət yetirilir, şifahi nitq bacarıqları – dinləmə və danışma diqqətdən kənarda qalırdı. Bu bacarıqların inkişaf etdirilməsi və qiymətləndirilməsi metodikası yanlız kurikulum meydana gəldikdən sonra formalaşmağa başladı" [Paşayeva P., Abbasova S., 2021]. Bu fəsildə, həmçinin orta məktəbdə dinləyib-anlama bacarıqlarını inkişaf etdirməyə xidmət edən oxu mətnləri və onlar üzrə işin qurulması, şagirdin oxu mətnləri vasitəsilə onun ideyasını müəyyənləşdirməsi, münasibət bildirməsi, həmçinin dinləyib-anlama üzrə mətnin düzgün, ifadəli, rabitəli oxusunun həyata keçirilməsi, inşa, esse, ifadə yazılar vasitəsilə mətn üzərində işlərin qurulması və nəhayət, şagirdin dil vahidlərindən istifadə nəticəsində dil qaydalarını mənimsədiyini nümayiş etdirməsi kimi məsələlərə toxunulmaqla, məzmun xətləri arasında olan əlaqə vurğulanmışdır. Burada nitq prosesinin danışmaq, eşitmək və dərk etmək kimi mərhələlərdən ibarət olduğu göstərilir və hər biri haqqında məlumat verilir. Dinləyib-anlama prosesi üçün son dərəcə aktual olan məsələ mətnin dinlənilməsinin səmərəli yollarını müəyyənləşdirməkdir ki, bəhs olunan fəsildə bu barədə məlumat verilmişdir. Onları belə qruplaşdırmaq olar:

- təlim prosesini şagirdlərin yaşına və maraq dairəsinə uyğun şəkildə qurmaq;
- məlumatı dinləyən zaman şagirdlərin parta arxasında rahat oturmasını təmin etmək, partaların üstündə, sinifdə şagirdlərin diqqətini yayındıran heç bir şeyin olmaması;
- danışan şəxsin – müəllim və ya şagirdin dayandığı yerin əhəmiyyəti (Yəni danışan şəxs elə yerdə dayanmalıdır ki, dinləyən onun jest və mimikalarını izləyə bilsin);
- mətni seçərkən onun həcminə diqqət etmək, böyük mətnləri hissələrə bölərək oxu prosesini həyata keçirmək, bölünmüş hissələrin oxusunun 5 dəqiqədən çox olmamasına diqqət etmək;
- oxu zamanı düşündürücü suallardan istifadə etmək;
- şagirdləri sual verməyə və fikir bildirməyə sövq etmək;
- mətnlə bağlı çalışmalardan istifadə etmək.

Bu fəsildə danışmanın 3 mərhələsi qeyd olunur:

**1.** gördüklərini sözlər vasitəsi ilə təsvir etmək, danışmaq;

**2.** dinlədiyi materialı öz sözləri, ifadələri və cümlələri ilə danışmaq;

**3.** fikirləşdiklərini, anladıqlarını, düşündüklərini danışmaq.

Gördüklərini danışmaq nitq prosesinin daha asan mərhələsidir, bu bacarıq şagirdlərdə ibtidai siniflərdən formalaşdırılır. Dinlədiyini və ya oxuduğunu danışmaq isə bir qədər mürəkkəb prosesdir. Anladığını, düşündüyünü danışmaq isə digər danışma növləri ilə müqayisədə daha çətin əldə edilən prosesdir. Bu mər-

hələnin çətinliyi belə izah olunmuşdur: beyin iki fəaliyyət növünə cəlb olunur, məhz ikili fəaliyyət bu prosesi çətinləşdirir.

Pedaqogika üzrə elmlər doktoru, Vaqif Qurbanovun “Dil təliminin nəzəri problemləri” adlı kitabında ana dilimizin tədrisi zamanı yaranan problemlər, dinləyib-anlama və danışma üzrə işin istiqamətləri ilə bağlı məsələlər öz əksini tapmışdır. Ümumiyyətlə, Azərbaycan dili üzrə 4 məzmun xətti müəyyənləşdirilmişdir. Bunlardan birincisi, “Dinləyib–anlama və danışma” məzmun xəttidir. Onun vasitəsilə şagirdlərdə aşağıdakı bacarıqlar formalaşır:

1. Şagirdlərin nitq inkişafına, nitq mədəniyyətinin formalaşmasına birbaşa təsir göstərir, şagirdlərdə müxtəlif informasiyaları təhlil etməyi, ümumiləşdirmə aparmağı, öz mövqeyini əsaslandırmağı inkişaf etdirir.

2. Şagirdə müşahidə etdiyi şəkil, əşya, mənzərə və hadisə əsasında hekayə qurmağı öyrədir.

3. Sadə nitq etiketlərinin tanınması, işlənmə yerinin və məqamının anlaşılması, dialoqlarda görüşmə, təfəkkür və üzrxahlıq etiketlərindən istifadə olunmasını təmin edir.

4. Dilə köməkçi vasitələrin – sadə jest və mimik hərəkətlərin işlənmə məqamının müəyyənləşdirilməsini, kiçik həcmli, bədii mətnlərdəki fikri ifadə edərkən onlardan məqsədəuyğun şəkildə istifadə olunması bacarıqlarını inkişaf etdirir və s.

İbtidai təhsil səviyyəsi üzrə ümumi təlim nəticələrinə nəzər salaq: burada qeyd edilir ki, şagird danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir, oxu mətnlərinə münasibət bildirir, kiçik həcmli, rabitəli mətnlər qurur, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir. Göründüyü kimi, əldə ediləcək nəticələr əvvəlcədən müəyyənləşdirilmişdir.

Şagirdin nitq bacarığı o zaman inkişaf edir ki, o, öz fikirlərini sərbəst ifadə etməyə çalışır. Müəllimin söylədiklərini və ya dərslikdə oxuduqlarını mexaniki olaraq təkrar etməyə çalışan şagird danışmır, sanki tutuquşuluq edir və belə şagirddə anlatma vərdişləri inkişaf edə bilməz. Nitq bacarıqları tənqidi təfəkkür və sərbəst ünsiyyətlə üzvi surətdə əlaqəlidir.

Dinlənilən mətnlə bağlı fikir yürütmək dərs prosesində dinləmə və danışma bacarıqlarını sintez etməyə imkan verir. Dilin öyrənilməsində mətn əsas material rolunu oynayır. Ana dili kurikulumunda təsbit olunmuş məzmun standartları, ilk növbədə, mətn vasitəsilə reallaşır. Mətn şagirdin analitik, məntiqi, tənqidi, yaradıcı təfəkkürünün inkişafı üçün də əvəzolunmaz material rolunu oynayır.

Nəzərə almaq lazımdır ki, dil tədrisində mətnlə bağlı çalışmalar, ilk növbədə, kurikulumda təsbit olunmuş nitq bacarıqlarının inkişafına xidmət etməlidir. Mətnin məzmunu ilə bağlı qazanılan biliklər, əslində, Azərbaycan dili fənninin predmeti deyil. Ona görə də Azərbaycan dili dərsinin əsas məqsədi heç də mətndə

ehtiva olunan biliklərin mənimsənilməsi deyil, mətni dinləyib və ya oxuyub anladığını danışmaq və ya yazmaq yolu ilə nümayiş etdirməkdir. Əgər şagird bunu edə bilirsə, deməli, o, biliyi də mənimsəyir. Mətndən çıxış edərək nitq bacarıqlarını inkişaf etdirmək üçün bir sıra çalışma modelləri var ki, müəllimlər onlardan istifadə etməklə özləri mətn hazırlaya bilərlər. Bunun üçün isə dinləmə materialı maraqlı olmalıdır ki, uşaqlar danışmağa həvəsli olsunlar. Təlimin müəyyən mərhələlərində şagirdin dinləmə üzrə bir sıra bacarıqları da hədəf seçilə bilər və qiymətləndirmə zamanı bu bacarıqlar meyar kimi götürülə bilər. Məsələn, dinlədiyi mətn parçasını öz sözləri ilə təkrar edir, dinlədiyi şeirin məzmununu nəsrə çevirir, dinlədiyi mətnə çəkilmiş şəkillərin süjetə uyğun ardıcıllığını müəyyən edir, dinlədiyi mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu müəyyən edir və s.

"Bu gün təhsilin qarşısında duran mühüm vəzifələrdən biri də şagirdlərin qazandıqları biliklərin təcrübədə əhəmiyyətini dərk etmələridir. Şagirdlərə ibtidai siniflərdən etibarən elə şərait yaradılmalıdır ki, onlar fikirlərini yoldaşları ilə nə üçün bölüşdüklərini, onun mahiyyətini, əhəmiyyətini dərk etsinlər" [Cəfərova N., 2016]. Bu mənada, müəllim çalışmalıdır ki, dinləmə mətnlərinin şagirdlərə qazandıracağı keyfiyyətləri onlara aşılaya bilsin və şagirdlər dərk etsinlər ki, qazandıqları bu keyfiyyətlər həyatda onlara lazım olacaq.

"Müəllim Azərbaycan dili dərslərini o zaman səmərəli təşkil edə bilər ki, öyrədəcəyi dil bölməsinin qarşısında qoyulan məqsədi dəqiq müəyyənləşdirə, nəzəri və praktik materiallar arasında qarşılıqlı əlaqəni təmin edə bilsin" [Kərimov Y., 2013]. Azərbaycan dili fənninin tədrisinin əsas prinsiplərindən biri nitq inkişafı olduğundan bütün dil bölmələrinə bu prizmadan yanaşılır və hər bir dil normasının öyrədilməsindən konkret nəticələr gözlənilir. Belə ki, dilin müxtəlif bölmələrinə dair tək-tək faktlar, fonetik-qrammatik hadisələr fonunda verilən biliklər vahid məqsədə xidmət etməlidir. Şagirdlərdə dilə həssas münasibət oyatmalı, onların yazılı və şifahi nitq vərdişlərini inkişaf etdirməklə Azərbaycan dilinin sistemli şəkildə öyrədilməsinə zəmin yaradılmalıdır.

## Nəticə / Conclusion

Dinləyib-anlama və danışma məzmun xətti bütün şagirdlərdə ana dilinin düzgün mənimsənilməsinə, dinləmə mədəniyyəti, dinlədiyini anlama və müstəqil olaraq danışıq bacarıqlarının inkişafına böyük təkan verir. Hər bir insan ətraf aləm haqqında təəssüratlarını oxu və dinləmə bacarıqları sayəsində qəbul edir və mənimsəyir. Şagirdlərin şifahi nitqlərini qurmaq və sərbəst şəkildə öz fikirlərini ifadə edə bilmək bacarığı bu məzmun xəttinin sayəsində inkişaf etdirilir. Dinləmə mətnləri burada obyekt rolunu oynayır.

"Təhsil haqqında" Qanunda dövlətin qarşısında öz məsuliyyətini dərk edən,

xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq qalan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək əsas məqsədlərdən biri kimi qeyd edilir [“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009]. Bu mənada kurikulum proqramının tələblərinə görə, təhsil sistemi şəxsiyyətyönümlü olmalı, şagirdlər müstəqil düşüncəyə, eyni zamanda nitq bacarıqlarına malik olmalıdırlar.

Şagirdlərin hərtərəfli mədəniyyətə yiyələnmələrində onların nitqi böyük rol oynayır. Şəxsiyyəti formalaşdırmaq, inkişaf etdirmək ümumtəhsil məktəblərinin başlıca vəzifəsidir. Ə.Əlizadənin fikrincə, “Müasir təhsil konsepsiyası təlimin məzmununu şəxsiyyət kontekstində təhlil edir, onu şagird şəxsiyyətinin inkişafı vasitəsi kimi dəyərləndirir” [Əlizadə Ə., 2001]. Təhsil sahəsində aparılan islahatlar, yeni təlim texnologiyalarının tətbiqi, strategiyalardan irəli gələn hədəflər ibtidai təhsilin qarşısında həlli vacib olan problemlər qoymuşdur.

Şagirdlərə məntiqi və yaradıcı təfəkkürün elementlərini mənimsətmək, onlarda təlimin məzmun xətləri üzrə bacarıq və vərdişlər formalaşdırmaq əsas məsələlərdəndir. Şagird dil dərslərində müşahidə etdiyi şəkil, əşya, hadisə əsasında hekayə qurub, istənilən şəraitdə müstəqil çıxış edə bilməli və danışarkən nitq etiketlərindən yerli-yerində istifadə etməyi bacarmalıdır. Dinləmə mətnlərindən istifadənin didaktik imkanları məhz elə bu bacarıqların formalaşmasına xidmət edir. Beləliklə, deyilənləri belə ümumiləşdirə bilərik:

1. Dinləmə mətnlərinin didaktikasının şifahi nitqin inkişafında və ümumiyyətlə, şagirdlərin təlimə marağının yüksəldilməsində rolu nəzəri və praktik cəhətdən inkaredilməzdir.

2. Dinləmə mətnlərindən şagirdlərin ədəbi tələffüz vərdişlərinin inkişaf etdirilməsi və eşitmə vasitəsi kimi istifadə olunması metodikanı zənginləşdirən imkanlar və yollardır.

**Məqalənin aktuallığı.** İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi prosesində dinləmə və oxu bacarıqlarının inkişaf etdirilməsi, oxu mədəniyyətinin yaradılması istiqamətində hansı işlərin görülməsi son illərdə aktual araşdırma mövzusu olmuşdur. Bu sahədə aparılan araşdırmalarda dinləmə, danışma, oxu, bacarıq və vərdişlərinin, oxu mədəniyyətinin yaradılması istiqamətində səmərəli texnologiyalardan istifadənin əhəmiyyəti əsaslandırılır.

Dinləmə mədəniyyətdir. Dünya alimləri sübut etmişdir ki, dünya əhalisinin 95%-i dinləməyi bacarmır. Dinləmə, ilk növbədə, şifahi nitq bacarığının formalaşmasına xidmət edir. Oxu, yazı, dil qaydalarını formalaşdıran dinləmə bütün məzmun xətlərinin başlanğıcıdır.

“Bugünkü günümüzdə qarşılıqlı birgə fəaliyyətin qurulması, idarəçiliyin təmin olunması birbaşa şifahi kommunikasiyanın payına düşür. Hesablamalara

görə müxtəlif fəaliyyət sferalarında qərarların qəbul olunması əksər hallarda şifahi nitq fəaliyyəti ilə baş tutur və bu rəqəm 70% təşkil edir" [Cəfərov V., 2021]. Aparılan təhlillərə əsasən, qeyd etmək olar ki, dinləmə hər zaman aktuallıq kəsb edən bir mövzu olaraq araşdırmaların mərkəzində olmalıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi dinləmə mətnləri üzərində aparılan didaktik işlərin ətraflı şəkildə izahını verməkdir. Eyni zamanda burada şagirdlərin dinləmə mətnləri vasitəsilə nitqinin inkişaf etdirilməsi yolları da göstərilmişdir. Uşaqlarda nitq mədəniyyətini, təfəkkürü, bədii yaradıcılıq qabiliyyətlərini və dünyagörüşünü inkişaf etdirməkdə Azərbaycan dili dərslərində aparılan inşa və ifadə yazıların rolu müstəsna əhəmiyyətə malikdir.

**Məqalənin praktik əhəmiyyəti.** Ümumtəhsil məktəblərinin müəllimləri şagirdlərin nitqini inkişaf etdirmək istiqamətində müsbət nəticələr əldə etmək üçün dərs prosesində məqalədə sadalanan imkan və yolları tətbiq edə bilərlər. Məqalə, həmçinin pedaqoji profilli universitet və kollec tələbələrinin məlumat mənbəyi kimi yararlanmaları üçün əhəmiyyətlidir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Balayeva G. (2012). İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri. Bakı, "Elm və təhsil". 150 s.
2. Bayramov Ə.S, Əlizadə Ə.Ə. (2006). Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Çinar-Çap". 620 s.
3. Cəfərova N.B. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı, "ADPU". 410 s.
4. Cəfərova N.B. (2021). Oxu təliminin metodikası. Bakı, "ADPU". 476 s.
5. Cəfərov V.B (2021). Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, "BDU". 172 s.
6. Əlizadə Ə.Ə. (2001). Yeni pedaqoji təfəkkür, ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. Bakı, "Adiloğlu".162 s.
7. Kərimov Y.Ş. (2013). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, "Səda".552 s.
8. Paşayeva P., Abbasova S. (2021). Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, "ADPU-nun mətbəəsi". 157 s.
9. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009). Bakı, 80 s.